**UOT 01**

# QARABAĞ TARİXİ: ÜMUMTƏHSİL MƏKTƏBLƏRİ ÜÇÜN DƏYƏRLİ DƏRSLİK

***Abbas Qadir oğlu Seyidov***
***Azərbaycan Dövlət İqtisad Universiteti***
***abbas.seyidov@gmail.com***

***"Dağlıq Qarabağ bizim doğma, əzəli torpağımızdır. Azərbaycan torpaqlarında ikinci erməni dövlətinin yaradılmasına Azərbaycan dövləti və xalqı heç vaxt imkan verməyəcək".***

**İlham ƏLİYEV**
Azərbaycan Respublikasının Prezidenti

**Açar sözlər:** *Qarabağ tarixi, Dağlıq Qarabağ, dərslik, şagirdlər, ümumtəhsil məktəbi*

## ИСТОРИЯ КАРАБАХА: ЦЕННЫЙ УЧЕБНИК ДЛЯ ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛ

(на Азербайджанском и русском языках)

***Аббас Сеидов***

**Ключевые слова:** *история Карабаха, Нагорный Карабах, учебник, ученики, общеобразовательные школы*

*На днях был опубликован учебник по истории Карабаха для учеников седьмого класса. 112-страничный учебник выпущен тиражом в 131 тысяч.*

*Учебник по истории Карабаха состоит из введения и двух разделов, каждый из которых состоит из 15 глав. Первый раздел охватывает период с древнейших времен до начала XX века, а второй раздел – с начала XX века по сей день.*

# HISTORY OF GARABAGH: A VALUABLE TEXTBOOK FOR GENERAL EDUCATION SCHOOLS

(In Azerbaijani and Russian)

***Abbas Seyidov***

**Keywords:** *history of Karabakh, Mountainous Garabagh, textbook, students, general education schools*

*Recently, a textbook on the history of Garabagh was published for students of the 7$^{th}$ grade. The 112-page textbook has a circulation of over 131 thousand.*

*The textbook consists of introduction, and two sections of 15 chapters each. The first section covers the period from ancient times to the beginning of the twentieth century, whilst the second section portrays the events of from the beginning of the twentieth century to modern days.*

Bu günlərdə tarix elmləri doktoru Qasım Əhəd oğlu Hacıyev və əməkdar müəllim Əyyub Şəfahət oğlu Əbdüləzimovun birgə hazırladığı 7-ci sinif şagirdləri üçün Qarabağ tarixi kursu üzrə dərslik işıq üzü görüb (Azərbaycan və rus dillərində). Kitabın elmi redaktoru tarix elmləri doktoru, professor Camal Mustafayev, rəyçilər isə tarix elmləri doktorları Tofiq Nəcəfli və Nazim Məmmədovdur. 112 səhifəlik dərslik "Ərgünəş FM NPM"-də yığılıb və "Çaşıoğlu" mətbəəsində (Bakı, 2019) 131.283 tirajla çap olunub.

Qarabağ tarixi dərsliyi giriş və iki bölmədən ibarətdir. I bölmə (15 başlıq) qədim dövrdən 20-ci yüzilin əvvəlinədək olan dövrü, II bölmə (15 başlıq) 20-ci yüzilliyin əvvəllərindən müasir dövrədək olan mərhələni əhatə edir.

Söz yox ki, müasir dövrdə Azərbaycan Respublikasının Qarabağ regionunun tarixinin, mədəniyyətinin bir kurs kimi ümumtəhsil məktəblərində tədris olunması böyük əhəmiyyətə malikdir. Ən əsası ona görə ki, şagirdlər ilk növbədə Vətənimizin ayrılmaz bir parçası olan, əzəli-əbədi torpağımız cənnət Qarabağ haqqında zəngin biliyə malik olurlar. İkincisi, onlar bu kitabı oxuduqca, təkzibolunmaz faktlar əsasında anlayırlar ki, Qarabağ regionu ən qədim zamanlardan əski türk etnoslarının yaşadığı ərazi olub. Mənfur qonşularımız ermənilərə xalqımız sığınacaq kimi bu yerlərdə yaşamağa imkan yaradıb. Onlar isə bizim bu mərhəmətimizdən istifadə edərək, öz havadarlarının köməyi ilə bu yerləri "özününkü etməyə" cəhd göstəriblər. Üçüncüsü, şagirdlər Qarabağda gedən döyüşlərdə Azərbaycan oğullarının qəhrəmanlıq səhifələrini bir daha yada salır, ümummilli lider Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ müna-

qişəsinin həlli ilə bağlı həyata keçirdikləri genişmiqyaslı fəaliyyətləri ilə tanış olurlar.

Dərsliyin I bölməsində Qarabağ regionunun maddi-mədəniyyət abidələrindən bəhs edilir. Şagirdlərə bildirilir ki, Azıx, Tağlar kimi ibtidai insan məskənlərinin tədqiqi sübut edir ki, bu yerlərdə qədim insanlar iki milyon il bundan əvvəldən yaşamış və təxminən bir milyon il əvvəl Azıx mağarasında məskunlaşmışlar. Qeyd olunur ki, Şuşa mağarası, Şortəpə, Kültəpə, Uzuntəpə, Leylatəpə, Xantəpə, Qaraköpəktəpə və s. bu kimi eneolit, tunc dövrü abidələrindən göründüyü kimi, burada həyat müntəzəm, ardıcıl olaraq günümüzədək davam etmişdir. Arxeoloji və yazılı mənbələr əsasında bu yerlərin qədim türk etnoslarına mənsub olmasından danışılır.

"Qarabağ regionu türk etnoslarının qədim yaşayış məskənidir" adlı başlıqda yazılır: "Qarabağ regionunda yerli türk mənşəli oturaq və köçəri türk tayfaları da məskunlaşmışdır. Bizim eradan əvvəl I minillikdə onlar Kür və Araz hövzəsini tutmuşdular. Qaynaqlarda adları çəkilən bu sak, massaget tayfaları Azərbaycan ərazisinə, o cümlədən Qarabağa e.ə.7-ci yüzillikdə gəlmiş, bu ərazilərdə məskunlaşmış, tədricən yerli türk tayfaları ilə qaynayıb qarışmışlar" [1, s.19]. Söz yox ki, qədim yunan, latın, alban, fars, ərəb, türk mənbələrində Qarabağın təbiəti, bitki aləmi, iqtisadi və ticarət həyatı haqqında verdiyi məlumatlar şagirdlərin dünyagörüşünə təsirsiz ötüşməyəcəkdir.

Şagirdlər bilməlidirlər ki, Qarabağ antik və ilk orta əsrlərdə Roma, Albaniya, sasani, ərəb və xəzərlər arasında döyüş meydanına çevrilir. Kitabda orta əsrlərin renesans dövründə bu regionun Sacilərin, Salarilərin, Səlcuqların, Monqolların, Əmir Teymurun, daha sonra isə qədim Azərbaycan dövlətlərindən olan Qaraqoyunlu (Baharlı), Ağqoyunlu (Bayandurlu) və Səfəvilər dövlətinin tərkibində olmasından, Qarabağ xanlığının fəaliyyətindən, dövrün mədəniyyət və incəsənətindən, bölgənin Rusiya tərəfindən işğalından, ermənilərin Qarabağa köçürülməsindən, ərazidə kənd təsərrüfatı və sənətkarlığın inkişafından danışılır.

Qarabağ xanlığının yaranması və fəaliyyətindən bəhs edən 9-cu başlıqda Pənahəli xan Cavanşirin, İbrahimxəlil xanın fəaliyyətindən, Şuşa qalasının tikilməsindən bəhs olunur: "Pənahəli xan strateji cəhətdən əlverişli olan Şuşa – Pənahabad qalasını tikdirib, xanlığın iqamətgahına çevirdi" [1, s.39]. Şagirdlərə bildirilir ki, bu dövrdə ərazidə məskunlaşmış azsaylı ermənilər heç bir nüfuza malik olmamışlar. Xanlıq Rusiya tərəfindən işğal olunduqdan sonra buraya çoxsaylı erməni ailələri köçürülür, bu da demoqrafik dəyişikliklərə səbəb olur. Dərslikdə, mənbələr əsasında Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələrindən sonra əraziyə köçürülüb yerləşdirilən erməni ailələrinin sayından, XIX əsrin ikinci yarısı və XX əsrin əvvəllərində Qarabağın zəngin mədəniyyətindən, incəsənətindən danışılır.

Dərsliyin II bölməsi daha çox siyasi hadisələri əhatə edir. Belə ki, qeyd edildiyi kimi, bölgəyə köçürülərək süni şəkildə artırılan çoxsaylı erməni ailələri erməni siyasi birləşmələri qarşısında bir alətə çevrilərək, azərbaycanlılarla XX əsr boyu və dövrümüzədək münaqişələr yaratmış və dincliyi pozmuşlar. 1905-ci ildə ermənilər tərəfindən Bakıda başlayan münaqişə İrəvan, Zəngəzur, Naxçıvan kimi, Qarabağda da günahsız, əliyalın müsəlman əhalinin məhvinə səbəb olmuşdur. Baxmayaraq ki, o dövrdə Yuxarı Qarabağda əhalinin 72,6%-ni azərbaycanlılar təşkil edirdi, yaxşı silahlanmış erməni dəstələri havadarlarının köməyinə arxalanaraq müəyyən qırğınlar törədə bildilər. Qeyd olunduğu kimi: "Rusiyanın geosiyasi maraqlarına uyğun olan bu proseslər ermənilər üçün də çox məqsədəuyğun idi. Bu qanlı aksiyalarda məqsəd yerli əhalinin-azərbaycanlıların Yuxarı Qarabağ ərazisini tərk etməsi idi. Lakin ermənilərin Azərbaycan torpaqlarına kütləvi şəkildə köçürülməsi belə, demoqrafik vəziyyəti dəyişə bilmədi" [1, s.68].

Hadisələr bununla bitmədi. I Dünya müharibəsi (1914-1918) başladıqdan sonra, Türkiyənin Şərqi Anadolu ərazisinə rus qoşunları ilə birlikdə çoxlu əli silahlı erməni də daxil oldu. Rusiyada 1917-ci il çevrilişindən sonra Türkiyə ərazisini tərk edən, rus qoşunları ilə birlikdə geri dönən ermənilər öz silahlarını dinc türk-müsəlman əhaliyə qarşı yönəltdilər. Onlar Qarabağ, Naxçıvan və Zəngəzuru ələ keçirməyə çalışırdılar. Dərslikdə şərh olunan bu hadisələr, söz yox ki, şagirdlərin həqiqəti dərk etmək yolunda, düşüncələrində böyük izlər buraxacaqdır.

"I Dünya müharibəsi cəbhəsindən qayıdan ruslar öz silahlarını ermənilərə verdi. Erməni-daşnakların əlinə böyük miqdarda silah keçdi. Bu, azərbaycanlılara qarşı soyqırımının həyata keçirilməsinə səbəb oldu. 1918-ci ilin mart-sentyabr aylarında ermənilər Qarabağda soyqırımı törətdilər. Daşnaklar Qarabağın qəzalarında kəndləri və şəhərləri dağıtdılar, yandırdılar. Minlərlə azərbaycanlını öz doğma yurdlarından qovdular" [1, s.73]. 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti dövründə xalqımızın igid oğulları Qarabağda baş verən erməni seperatçılarına layiqli cavab verdilər.

1920-ci ildə Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra belə, 1920-1921-ci illərdə Ermənistandan Azərbaycana 850 erməni ailəsi köçürüldü ki, bu ailələrin də 765-i Yuxarı Qarabağda yerləşdirildi. Etiraz əlaməti olaraq Qarabağda başlayan xalq üsyanları amansızcasına yatırıldı. Dərslikdə qeyd olunduğu kimi, "Sovet Rusiyası...Azərbaycan SSR-in tərkibində Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV) yaratdı. 1923-cü il 7 iyulda Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi DQMV-nın yaradılması haqqında dekret verdi. Dekretlə vilayətin mərkəzi Xankəndi göstərildi... DQMV-nın yaradılması Azərbaycanın ərazi bütövlüyünə qəsd idi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi bu barədə fikri olduqca maraqlıdır: "...xəritələrdə bütün adlar əzəli adları ilə göstərilib. Stepanakert adlı şəhər yoxdur. Orada

Xankəndi var. Stepanakert sözü bolşevik Stepan Şaumyanın adından götürülüb. O adamın ki, Azərbaycan xalqının, günahsız adamların qanını axıtmışdır, azərbaycanlılara qarşı soyqırımı törətmişdir’”’ [1, s.77].

Dərslikdə 21-ci başlıq altında XX yüzildə Qarabağda mədəniyyətin inkişafından bəhs olunur: “Qarabağ Azərbaycan mədəniyyətinin inkişafında mühüm rolu olan regionlardan biridir. Zəngin mədəniyyətə malik olan Şuşa mühüm təhsil mərkəzi və ziyalılar şəhəri olmuşdur. Qarabağ regionu dünya mədəniyyəti tarixinə ensiklopedik biliyə malik şəxsiyyətlər vermişdir” [1, s.80]. Şagirdlər bu başlıq altında dahi istedad sahibləri, Üzeyir bəy Hacıbəyli, Cabbar Qaryağdıoğlu, Seyid və Xan Şuşinskilər, Bülbül, Süleyman Ələsgərov, Zülfüqar Hacıbəyli, Zülfi Adıgözəlov, Şəmsi Bədəlbəyli, Qurban Pirimov və başqa incəsənət nümayəndələri ilə tanış olurlar.

İkinci Dünya müharibəsi (1939-1941) başlayanda Qarabağdan 200.000 nəfər cəbhəyə yola düşmüş, müharibədə igidliklər göstərmişlər. Onların çoxu geri qayıtmamışdır. Müharibədən sonra, keçən əsrin 50-ci illərində DQMV-nin dövlət idarə orqanlarında, təsərrüfat və mədəni-maarif ocaqlarında çalışanların böyük əksəriyyəti ermənilərdən ibarət idi. Sovetlər dövründə ermənilər Dağlıq Qarabağın Ermənistana verilməsi istiqamətində gizli işlər aparırdılar. 60-cı illərin sonuna qədər əsassız ərazi iddiaları davam edirdi. 1969-cu ildə Ulu Öndər Heydər Əliyev Azərbaycan KP MK-nin Birinci Katibi seçildikdən sonra erməni separatçılarının mənfur niyyətlərinin qarşısı alındı. “DQMV-nın iqtisadi inkişafı və əhalisinin sosial şəraitini daha da yaxşılaşdırmaq üçün müəyyən tədbirlər həyata keçirildi. Onlara (ermənilərə-M.) bəhanə yeri qoyulmadı” [1, s.83].

1985-ci ildə M.S.Qorbaçovun SSRİ-də hakimiyyət başına gəlməsi ermənilərin yenidən fəallaşmasına səbəb oldu. 1987-ci ildə DQMV-da ermənilər mitinqlər və küçə yürüşləri keçirdilər. 1988-ci il iyunun 12-də DQMV Xalq Deputatları Soveti ərazi bütövlüyümüzə qarşı açıq hüquqi müdaxilə edərək, muxtar vilayətin Azərbaycan SSR-in tərkibindən çıxarılıb Ermənistan SSR-ə verilməsi haqda qərar qəbul etdi. Eyni məzmunlu qərar 1989-cu ilin dekabrın 1-də Ermənistan SSR Ali Soveti tərəfindən də olundu.

Şagirdlərə məlumat verilir ki, adekvat addımlar Azərbaycan tərəfdən atılsa da, ölkədə 1990-1993-cü illərdə hakimiyyət böhranı və səriştəsizlik ucbatından torpaqlarımızın bir hissəsini itirdik. Bir-birinin ardınca Kərkicahan, Malıbəyli, Quşçular, Qaradağlı və digər yaşayış məskənləri erməni quldurları tərəfindən viran edildi. 1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə Xocalı şəhəri yerlə yeksan edildi. 613 dinc sakin qətlə yetirildi, 487 nəfər yaralandı, 1275 nəfər əsir götürüldü, 150 nəfər itkin düşdü. Heydər Əliyevin söylədiyi kimi: “Bu amansız və qəddar soyqırımı aktı insanlıq tarixinə ən qorxulu kütləvi terror aktlarından biri kimi daxil oldu”. Dərslikdə Xankəndi, Əsgəran, Xocalı, Şuşa, Xocavənd, Ağdərə, həmçinin Qarabağ regionunun yeddi rayonunun –

Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilanın işğal tarixləri qeyd olunub. Qarabağ torpaqlarının müdafiəsində mərdlik və igidlik göstərən Azərbaycanın Milli Qəhrəmanları Əlif Hacıyev, Tofiq Hüseynov, İnqilab İsmayılov, Mövsüm Məmmədov, Ələsgər Novruzov, Füzuli Rüstəmov, Araz Səlimov və digər Azərbaycanın mərd oğullarının adarı əbədiləşdirilir.

Şagirdlərə izah olunur ki, Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilməsindən sonra ölkədə olan anarxiyaya son qoyuldu, azğınlaşmış düşmənin qarşısı alındı və hərbi sahədə vacib tədbirlər həyata keçirildi. Mərkəzləşmiş komandanlıq təkmilləşdirildi. Əhalinin gələcəyə inamı artdı. Beynəlxalq arenada aparılan yüksək səviyyəli görüşlər nəticəsində 1994-cü il mayın 12-də Ermənistan ilə Azərbaycan Respublikası arasında atəşkəs barədə razılaşma əldə olundu.

Dərsliyin 29 və 30-cu bölmələrində 2016-cı ilin Aprel döyüşlərində ordumuzun parlaq qələbəsindən və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı genişmiqyaslı fəaliyyətindən bəhs edilir. Aprel döyüşlərində düşmənə aman verməyən və ondan qat-qat güclü ordumuz erməni birləşmələrinin müdafiə xəttini yararaq, "Lələtəpə" və bir sıra yüksəklikləri düşməndən geri aldı. Xalqımız bir daha əmin oldu ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan ordusu istənilən an düşmənə həlledici zərbə vurmağa hazırdır. Aprel döyüşləri haqda Prezident İlham Əliyev demişdir: "Əks-hücum əməliyyatı nəticəsində ordumuz düşmənə güclü, sarsıdıcı zərbə vurub və minlərlə hektar torpaq işğaldan azad edilib. Aprel döyüşləri həm bizim parlaq qələbəmizdir, həm də bir daha Azərbaycan dövlətinin gücünü göstərdi" [1, s.102].

Prezident İlham Əliyevin böyük qətiyyətlə apardığı xarici siyasət Azərbaycan Respublikasının milli maraqlarına tam cavab verir. Onun söylədiyi kimi: "Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun azad edəcəkdir". Ölkə başçısının diqqət və qayğısı nəticəsində hələ 1994-cü ildə azad olunmuş Cocuq Mərcanlıda bərpa işləri aparıldı ki, bu da böyük yolun, böyük qayıdışın başlanğıcı idi.

Biz doğma torpaqlarımıza qayıdacağıq!

Dərslik ümumtəhsil məktəbi şagirdlərinin anlayacağı dildə yazılıb. Demək olar ki, bütün dövrləri əhatə edən, rəngli xəritələr, maddi-mədəniyyət nümunələri, tarixi şəxsiyyətlərin, mədəniyyət və incəsənət xadimlərinin fotoşəkilləri ilə bəzənən dərslik ümumtəhsil məktəblərinin şagirdləri üçün bir töhfədir.

## ƏDƏBİYYAT

1. Qarabağ tarixi (Ümumtəhsil məktəblərinin 7-ci sinfi üçün Qarabağ tarixi kursu üzrə dərslik), Bakı, Çaşıoğlu mətbəəsi, 2019, 112 səhifə.


QARABAĞ
TARİXİ
7